Azerbaijan Energy Regulatory Agency

AZƏRİŞIQ AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

2023

Elektrik enerjisi təchizatı sahəsini,
onun funksiya və xüsusiyyətlərini əks etdirən

# ELEKTRON MƏLUMAT KİTABÇASI

www.regulator.gov.az

# MÜNDƏRİCAT


## Giriş

1. Elektrik enerjisi təchizatının təsviri
2. Elektrik enerjisi təchizatının funksiyalarının təsviri

    2.1. Tariflərin müəyyən edilməsi

    2.2. Xidmət keyfiyyətinin hədəfləri

3. Elektrik enerjisi təchizatının əsas xüsusiyyətləri (şəffaflıq, müstəqillik)

# Giriş

Bu Kitabça Dünya Bankı Qrupunun “***Əlverişli Biznes Mühiti” layihəsinin “Kommunal xidmətlərə (elektrik təchizatı şəbəkəsinə) qoşulma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2022-2023-cü illər üzrə Yol Xəritəsi***”nin (1.1.1-ci yarımbəndinə əsasən hazırlanmışdır.

Bu Kitabçada qanunların və dövlət orqanlarının adlarına istinad edilərkən, müvafiq olaraq Azərbaycan Respublikasının qanunları və dövlət orqanları başa düşülür. Bu səbəbdən “Azərbaycan Respublikası” sözləri mətndə ixtisara salınıb.

Azərbaycan Respublikasının elektroenergetika sektorunu tənzimləyən normativ-hüquqi aktlara dəyişikliklər edildikdə, həmin dəyişikliklər bu Kitabçada əks etdiriləcək.

Bu Kitabça dərc olunduğu zaman “**Elektroenergetika haqqında**” 03.04.1998-ci il tarixli 459-IQ nömrəli Qanunun (https://e-qanun.az/framework/3524) hələ qüvvədən düşmədiyi, “**Elektroenergetika haqqında**” 11.04.2023-cü il tarixli 858-VIQ nömrəli Qanunun (https://e-qanun.az/framework/54209) isə yalnız 2024-cü ildə qüvvəyə minəcəyi nəzərə alınaraq hazırlanmışdır.

## 1. Elektrik enerjisi təchizatının təsviri

Azərbaycan Respublikasının "**Energetika haqqında**" 24.11.1998-ci il tarixli 541-IQ nömrəli Qanununda və 2024-cü ilin yanvar ayının 1-inə qədər qüvvədə olan "**Elektroenergetika haqqında**" 03.04.1998-ci il tarixli 459-IQ nömrəli Qanununda (https://e-qanun.az/framework/3524) "enerji təchizatı" və ya "elektrik enerjisinin təchizatı" ifadələrinə tərif verilməsə də sonuncuda aşağıdakı anlayışlar verilib: "***enerji təchizatı müəssisəsi*** *— xüsusi icazə əsasında əhalinin və digər istehlakçıların enerji ilə təchizatına təminat verən hüquqi şəxs*"; "***enerji təchizatı şəbəkəsi (paylayıcı şəbəkə)*** *– elektrik enerjisinin paylanılması üçün nəzərdə tutulmuş elektrik qurğularının, o cümlədən ötürücü şəbəkəyə aid olmayan 110 kV və ondan aşağı gərginlikli transformator yarımstansiyaları və elektrik verilişi xətlərinin məcmusu*".

Başqa sözlə, 1998-ci il qanunvericiliyinin təhlili onu göstərir ki, həmin qanunvericilikdə "təchizat" dedikdə, elektrik enerjisinin paylanması, satışı, habelə bilavasitə ötürücü şəbəkəyə qoşulmuş istehlakçılara münasibətdə eyni zamanda ötürmə başa düşülür. Lakin 2023-cü il qanunvericiliyində bu yanaşma köklü surətdə dəyişmişdir.

Belə ki, "**Elektroenergetika haqqında**" 11.04.2023-cü il tarixli 858-VIQ nömrəli Qanunda (https://e-qanun.az/framework/54209) müvafiq anlayışlar bu cür qeyd olunub:

"1.1.18. **elektrik enerjisinin təchizatçısı (təchizatçı)** – istehlakçıları elektrik enerjisi ilə təchiz edən elektroenergetika subyekti;

1.1.33. **elektrik enerjisinin təchizatı** – elektrik enerjisinin istehlakçılara elektrik enerjisinin təchizatı müqavilələri əsasında satışı".

Qeyd olunan müddəadan göründüyü kimi, yeni qanunvericilik Avropa İttifaqının "energetika paketi" adlanan sənədlər toplusuna daxil edilmiş direktiv və reqlamentlərdə ingilis dilində təsbit olunmuş "supply" terminınə uyğunlaşdırılaraq, artıq satış, o cümlədən yenidən satış kimi anlaşılır.

Bununla yanaşı, "**Elektroenergetika haqqında**" 11.04.2023-cü il tarixli 858-VIQ nömrəli Qanun (https://e-qanun.az/framework/54209) satıcının şəbəkəsinin olmasını tələb etmir.

Eyni zamanda, həmin Qanunun 1.1.26-cı maddəsində, 1998-ci il qanunlarından fərqli olaraq, təchizatçı "elektrik enerjisinin topdansatış bazarının subyektləri" siyahısında ayrıca subyekt kimi qeyd edilib.

Bundan əlavə, həmin Qanunda sərbəst olmayan istehlakçılara xidmət göstərilməsi üçün təchizatçının xüsusi növü də qeyd olunub: "1.1.58. **səlahiyyətli *təchizatçı*** – *sərbəst olmayan istehlakçıların, habelə bu Qanunun 19.8-ci maddəsində nəzərdə tutulan sərbəst istehlakçıların elektrik enerjisi ilə təchizatını həyata keçirən hüquqi şəxs*" (Məlumat üçün: "*19.8. Təchizatçı*

*seçmək hüququndan istifadə etməyən və ya bu Qanunun 19.9-cu maddəsində nəzərdə tutulan hallarda sərbəst istehlakçıların elektrik enerjisi ilə təchizatı bu Qanunun 9-cu maddəsinə əsasən müəyyən edilən qiymət (tarif) əsasında səlahiyyətli təchizatçı tərəfindən həyata keçirilir. 19.9. Elektrik enerjisi təchizatçısının fəaliyyətinin dayandırılması və ya onun icazəsinin dayandırılması, yaxud ləğvi istehlakçıya elektrik enerjisi verilişinin dayandırılmasına səbəb ola bilməz. Bu hallarda istehlakçının təchizatçını dəyişdirməsi pərakəndə satış bazarı qaydaları ilə tənzimlənir*”).

Elektrik enerjisinin təchizatı ilə, habelə təchizatçının hüquq və vəzifələri ilə bağlı məsələlər həmin Qanunda aşağıdakı kimi təsbit olunub:

***“Maddə 18. Elektrik enerjisinin təchizatı***

*18.1. Elektrik enerjisinin təchizatçısı elektrik enerjisinin topdan və ya pərakəndə satışını həyata keçirir.*

*18.2. Elektrik enerjisinin təchizatçısı elektrik enerjisinin ötürülməsi və paylanması fəaliyyəti ilə məşğul ola bilməz.*

*18.3. Elektrik enerjisinin təchizatı elektrik enerjisinin ötürülməsi və ya paylanması fəaliyyətinə münasibətdə hüquqi və iqtisadi baxımdan müstəqil fəaliyyətdir.*

*18.4. Ötürücü və paylayıcı sistem operatoru, habelə onun idarəetmə və ya qərar qəbuletmə prosesində iştirak edən şəxslər elektrik enerjisi təchizatçısının əmlakı üzərində mülkiyyət və ya istifadə hüququna, yaxud elektrik enerjisi təchizatçısının idarəetmə orqanlarının tərkibinin formalaşdırılmasında və ya həmin orqanların qərar qəbuletmə prosesində iştirak etmək hüququna malik ola və bu məqsədlə əqdlər bağlaya bilməzlər.*

*18.5. Elektrik enerjisi təchizatçısının vəzifələri aşağıdakılardır:*

*18.5.1. elektroenergetika sektorunu tənzimləyən normativ hüquqi aktların və normativ xarakterli aktların tələblərinə, habelə bu Qanunun 6.4-cü maddəsinə uyğun olaraq verilən yazılı göstərişlərə əməl etmək;*

*18.5.2. istehlakçı qrupları üzrə elektrik enerjisi təchizatının şərtlərini rəsmi internet saytında dərc etmək;*

*18.5.3. istehlakçılara onların hüquqlarını, vəzifələrini, habelə sərbəst istehlakçılara elektrik enerjisinin təchizatçısını seçmək hüququnu izah etmək;*

*18.5.4. öz təşəbbüsü ilə istehlakçı (sərbəst olmayan istehlakçılar istisna olmaqla) ilə bağlanılmış müqavilə şərtlərinin dəyişdirilməsi nəzərdə tutulan tarixdən 1 (bir) ay əvvəl istehlakçıya bu barədə bildiriş təqdim etmək (göndərmək);*

*18.5.5. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) [Energetika Nazirliyi], tənzimləyiciyə, bazar operatoruna, bu Qanunun 28.2-ci maddəsinə uyğun olaraq*

*müqavilə bağladığı ötürücü və (və ya) paylayıcı sistem operatoruna və elektrik enerjisinin istehsalçısına elektrik enerjisi bazarında fəaliyyətinə dair topdansatış bazarı qaydaları ilə müəyyən edilən hesabatlar və məlumatlar təqdim etmək;*

*18.5.6. bu Qanunun 28.2-ci maddəsinə uyğun olaraq ötürücü və ya paylayıcı sistem operatoru ilə bağlanılmış müqavilədə nəzərdə tutulmadığı halda hər ay istehlakçıya istehlak edilmiş elektrik enerjisinin dəyəri barədə hesab təqdim etmək;*

*18.5.7. istehlakçı ilə bağlanılmış elektrik enerjisinin təchizatı müqaviləsinin şərtlərinə uyğun olaraq elektrik enerjisinin tələb olunan həcmdə və keyfiyyətdə verilməməsi nəticəsində istehlakçıya vurulmuş ziyanı ödəmək.*

*18.6. Elektrik enerjisi təchizatçısının hüquqları aşağıdakılardır:*

*18.6.1. ötürücü və (və ya) paylayıcı sistem operatorlarından müvafiq olaraq ötürmə, yaxud paylama xidmətlərinin göstərilməsini tələb etmək;*

*18.6.2. istehlakçıya təqdim edilmiş hesaba uyğun olaraq ondan istehlak etdiyi elektrik enerjisinin dəyərinin ödənilməsini tələb etmək.*

*18.7. Sərbəst olmayan istehlakçıların, habelə bu Qanunun 19.8-ci maddəsində nəzərdə tutulan sərbəst istehlakçıların elektrik enerjisi ilə təchizatının həyata keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən səlahiyyətli təchizatçı müəyyən edilir.".*

Bundan əlavə, istehlakçı ilə əlaqədar təchizatçının hüquq və vəzifələri qeyd olunan Qanunun istehlakçılara həsr olunmuş maddəsində aşağıdakı kimi açıqlanıb:

*"19.1. İstehlakçıların elektrik enerjisi ilə təchizatı təchizatçılar tərəfindən həyata keçirilir.*

*19.2. Sərbəst və sərbəst olmayan istehlakçıların elektrik enerjisi ilə təchizatının xüsusiyyətləri pərakəndə satış bazarı qaydaları ilə tənzimlənir.*

*19.3. Sərbəst istehlakçı elektrik enerjisini ölkə ərazisində fəaliyyət göstərən istənilən təchizatçıdan almaq hüququna malikdir. Sərbəst olmayan istehlakçılar elektrik enerjisini yalnız səlahiyyətli təchizatçıdan alırlar.*

*19.4. Təchizatçı ərazi məhdudiyyəti olmadan sərbəst istehlakçılara elektrik enerjisinin topdan və ya pərakəndə satışını həyata keçirir. Sərbəst istehlakçıların elektrik enerjisi təchizatı ikitərəfli müqavilələr, mərkəzləşdirilmiş bazarda bağlanan alqı-satqı müqavilələri və ya pərakəndə satış bazarında təchizatçı ilə bağlanılan elektrik enerjisinin təchizatı müqaviləsi əsasında həyata keçirilir.*

*19.5. Sərbəst olmayan istehlakçıların elektrik enerjisi ilə təchizatı yalnız həmin istehlakçının yerləşdiyi ərazidə fəaliyyət göstərən səlahiyyətli təchizatçı tərəfindən onlar arasında bağlanılan birtipli müqavilələr əsasında həyata keçirilir.*

*19.6. Elektrik enerjisi istehlakçısının vəzifələri aşağıdakılardır:*

*...*

*19.6.2. elektrik enerjisinin təchizatı müqaviləsi ilə müəyyən edilmiş enerji istehlakı rejimlərinə riayət etmək;*

*...*

*19.6.4. istehlak edilən elektrik enerjisinin dəyərini elektrik enerjisinin təchizatı müqaviləsinin şərtlərinə uyğun olaraq təchizatçıya ödəmək;*

*...*

*19.7. Elektrik enerjisi istehlakçısının hüquqları aşağıdakılardır:*

*19.7.1. bu Qanunun tələblərinə uyğun olaraq elektrik şəbəkələrinə qoşulmaq;*

*19.7.2. təchizatçı ilə müqavilə bağlamazdan əvvəl müqavilə şərtləri, tariflər (qiymətlər) barədə məlumat əldə etmək;*

*19.7.3. elektrik enerjisinin təchizatı müqaviləsində nəzərdə tutulmuş keyfiyyət göstəricilərinə uyğun, etibarlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunmaq;*

*...*

*19.7.5. elektrik enerjisinin təchizatı müqaviləsinin şərtlərinə uyğun olaraq elektrik enerjisinin razılaşdırılmış həcmdə verilməməsi və ya aşağı keyfiyyətdə verilməsi nəticəsində vurulmuş ziyanın təchizatçı tərəfindən ödənilməsini tələb etmək;*

*19.7.6. təchizatçıdan bu Qanunla müəyyən edilən hallarda bildiriş almaq;*

*19.7.7. təchizatçı tərəfindən təklif olunan elektrik enerjisinə görə ödəniş üsullarından və sistemlərindən birini seçmək.*

*19.8. Təchizatçı seçmək hüququndan istifadə etməyən və ya bu Qanunun 19.9-cu maddəsində nəzərdə tutulan hallarda sərbəst istehlakçıların elektrik enerjisi ilə təchizatı bu Qanunun 9-cu maddəsinə əsasən müəyyən edilən qiymət (tarif) əsasında səlahiyyətli təchizatçı tərəfindən həyata keçirilir.*

*19.9. Elektrik enerjisi təchizatçısının fəaliyyətinin dayandırılması və ya onun icazəsinin dayandırılması, yaxud ləğvi istehlakçıya elektrik enerjisi verilişinin dayandırılmasına səbəb ola bilməz. Bu hallarda istehlakçının təchizatçını dəyişdirməsi pərakəndə satış bazarı qaydaları ilə tənzimlənir.*

*...*

*19.11. Təchizatçı ilə bağlanılan elektrik enerjisinin təchizatı müqaviləsinin şərtləri pərakəndə satış bazarı qaydaları ilə müəyyən edilir.*

*19.12. Təchizatçı sərbəst istehlakçılarla bağlanılmış elektrik enerjisinin təchizatı müqaviləsinin şərtlərini dəyişdirmək istədikdə, dəyişikliklərin edilməsi nəzərdə tutulan tarixdən 1 (bir) ay əvvəl onlara bildiriş göndərməli və bildirişə həmin istehlakçıların onunla bağlanılmış*

*müqaviləyə mülki qanunvericiliyə uyğun olaraq xitam vermək hüququ barədə məlumatı da daxil etməlidir. Sərbəst istehlakçılar təchizatçı tərəfindən onlara təqdim edilmiş yeni şərtlər ilə razılaşmadıqda, bağlanılmış elektrik enerjisinin təchizatı müqaviləsinə xitam verə bilərlər*".

Qeyd olunan müddəalardan görünür ki, təchizatçı istehlakçı ilə müqavilə bağlasa da elektrik enerjisinin istehlakçıya verilişi (çatdırılması) istehlakçının elektrik qurğularının hansı şəbəkəyə qoşulmasından asılı olaraq ötürücü və ya paylayıcı sistem operatoru tərəfindən həyata keçirilir.

Məlumdur ki, elektroenergetika sektorunda ötürücü və paylayıcı şəbəkələr təbii inhisar obyektləridir.

Bundan başqa, təchizatçının pərakəndə satış bazarında fəaliyyət prinsipləri də bəhs edilən Qanunda aşağıdakı kimi təsbit edilmişdir:

**"***28.1. Pərakəndə satış bazarında təchizatçı aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:*

*28.1.1. elektrik enerjisinin təchizatının icazə əsasında həyata keçirilməsi;*

*28.1.2. elektrik enerjisinin təchizatının bu Qanuna və pərakəndə satış bazarı qaydalarına uyğun həyata keçirilməsi;*

*28.1.3. elektrik enerjisinin təchizatının istehlakçılarla bağlanılmış müqavilələr əsasında həyata keçirilməsi.*

*28.2. Təchizatçı ilə elektrik enerjisinin təchizatı müqaviləsi bağlayan istehlakçının elektrik enerjisi ilə təchizatı həmin təchizatçı ilə ötürücü sistem operatoru və ya paylayıcı sistem operatoru arasında bağlanılmış müqavilə əsasında həyata keçirilir*".

"**Təbii inhisarlar haqqında**" Qanunun (https://e-qanun.az/framework/5038) 4-cü maddəsinin ikinci abzasında təbii inhisarlara bu cür tərif verilib: "***təbii inhisar*** *— istehsalın texnoloji xüsusiyyətlərinə görə rəqabətin olmadığı şəraitdə tələbatın ödənilməsi daha səmərəli olan və inhisar subyektlərinin istehsal etdiyi (satdığı) əmtəə istehlakda başqa əmtəə ilə əvəz edilə bilməyən əmtəə bazarının vəziyyəti*". Elektroenergetika sahəsində həm ötürücü, həm də paylayıcı şəbəkə həmin anlayışa uyğundur.

Həmin maddənin üçüncü abzası ilə təbii inhisar subyektinə tərif belə verilib: "***təbii inhisar subyekti*** *— təbii inhisar şəraitində əmtəə istehsalı (satışı) ilə məşğul olan təsərrüfat subyekti*".

Yuxarıda qeyd olunanlar nəzərə alınaraq, 19.07.2013-cü il tarixli 189 nömrəli NK Qərarı ilə təsdiq edilmiş "**Təbii inhisar subyektlərinin Siyahısı**" (https://e-qanun.az/framework/26296) ilə "Azərenerji" ASC (8-ci bənd) və "Azərişıq" ASC (18-ci bənd) təbii inhisar subyektlərinə aid ediliblər.

“**Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında**” Qanunun (https://e-qanun.az/framework/48129) 14.1-ci maddəsinə əsasən *“Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) elektrik enerjisi, təbii qaz və istilik enerjisinin ötürücü, nəqli, həmçinin onların paylayıcı sistemlərində effektivlik göstəricilərinin qiymətləndirilməsi əsasında enerji effektivliyi üzrə tədbirlərin dairəsini müəyyənləşdirir və aşağıdakıların həyata keçirilməsini təmin edir”.* Həmin Qanunun 14.1-ci maddəsində qeyd olunan tədbirlər *“14.1.1. enerji effektivliyi tədbirlərinin stimullaşdırılmasını; 14.1.2. enerji effektivliyini stimullaşdıran tarif siyasətinin formalaşdırılması üçün təkliflərin verilməsini; 14.1.3. istehsal gücləri və sistemin daha optimal iş rejimi hesabına xərclərin azaldılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsini”* əhatə edir.

Bundan əlavə həmin Qanunun 12-ci maddəsinə əsasən enerji təchizatçısı istehlakçıların istehlak olunmuş enerjiyə dair *“12.1.1. ən azı son üç ili əhatə edən və mütəmadi təqdim olunan hesabat dövrlərinə uyğunlaşdırılmış istehlak məlumatları; 12.1.2. ağıllı sayğacdan müasir internet şəbəkəsi vasitəsilə ötürülən və ya sayğacın interfeysindən əldə edilən istənilən müddət (ay və il) üzrə istehlak məlumatları”* məlumatlara əlçatanlığını təmin etməlidir. Həmin Qanunun 12.2-ci maddəsinə əsasən enerji təchizatçısı *“12.2.1. istehlak edilən enerji haqqında məlumatları istehlakçıya və istehlakçının razılığı ilə enerji effektivliyi xidməti icraçısına mütəmadi, asanlıqla başa düşülən və analoji dövrlə müqayisə etmə imkanı verən formada təqdim edir; 12.2.2. istehlakçılara enerji istehlakı üzrə məlumatların elektron formada göndərilməsi imkanının yaradılmasını, həmçinin istehlakçıların sorğusu əsasında onlara istehlak etdikləri enerjiyə dair aydın və başa düşülən izahın verilməsini təmin edir; 12.2.3. ağıllı sayğacın funksiyaları və ondan istifadə qaydası barədə istehlakçıları məlumatlandırır; 12.2.4. istehlakçıya aid məlumatların qorunmasını və məxfiliyini təmin edir”.*

Beləliklə, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən elektrik enerjisinin təchizatı təbii inhisar obyektləri olan ötürücü və paylayıcı şəbəkələr, habelə təbii inhisar obyekti olmayan istehsalçının şəbəkəsi vasitəsilə həyata keçirilə bilər. Bununla belə, elektrik enerjisinin ötürücüsü olan “Azərenerji” ASC ilə elektrik enerjisinin paylayıcısı olan “Azərişıq” ASC arasında münasibətlər, qanunvericilikdən əlavə, 17.09.2007-ci il tarixli 138 nömrəli NK Qərarı (https://e-qanun.az/framework/13595) ilə təsdiq edilmiş **“Azərenerji” ASC və “Azərişıq” ASC arasında Elektrik enerjisinin satınalınma Müqaviləsi”** ilə tənzimlənir. Həmin müqavilənin “**Elektroenergetika haqqında**” 11.04.2023-cü il tarixli 858-VIQ nömrəli Qanuna (https://e-qanun.az/framework/54209) uyğunlaşdırılması nəzərdə tutulur.

## 2. Elektrik enerjisi təchizatının funksiyalarının təsviri

Bu hissədə elektrik enerjisi təchizatının funksiyalarının, məsələn, tariflərin müəyyən edilməsində rolunun, xidmət keyfiyyətinin hədəflərinin təsviri verilmişdir.

Təchizatın funksiyaları "**Elektroenergetika haqqında**" 11.04.2023-cü il tarixli 858-VIQ nömrəli Qanunun (https://e-qanun.az/framework/54209) yuxarıda istinad edilən 18-ci maddəsində təsbit olunmuşdur.

Bununla yanaşı, elektrik enerjisi təchizatı, 22.12.2017-ci il tarixli 1750 nömrəli Prezident Fərmanı (https://e-qanun.az/framework/37363) ilə təsdiq edilmiş Enerji Məsələlərini Tənzimləmə Agentliyi (bundan sonra – **Agentlik**) tərəfindən tənzimlənir. Həmin Fərmanla təsdiqlənmiş "**Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi**"nin (bundan sonra – **Agentliyin Nizamnaməsi**) 2.2-ci bəndində Agentliyin fəaliyyət istiqamətləri (funksiyaları) bu cür təsbit edilir:

*"2.2. Agentlik aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:*

*2.2.1. müvafiq sahədə vahid dövlət siyasətinin formalaşdırılmasında və bu siyasətin həyata keçirilməsində iştirak edir;*

*2.2.2. qüvvədə olan qanunvericiliyə, o cümlədən istehlakçıların hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə müvafiq sahədə əməl edilməsinə nəzarəti həyata keçirir;*

*2.2.3. müvafiq sahədə fəaliyyət göstərən müəssisələr tərəfindən enerji resurslarından səmərəli istifadənin və enerji effektivliyinin təmin edilməsinə, habelə energetika sahəsində fəaliyyətin ətraf mühitə mənfi təsirinin qarşısının alınması və ya azaldılması üzrə müvafiq normalara uyğun tədbirlər görülməsinə nəzarəti həyata keçirir;*

*2.2.4. müvafiq sahədə investisiya mühitinin əlverişliliyinin artırılması, habelə beynəlxalq təcrübə nəzərə alınmaqla, həmin sahələrə investisiya cəlb edilməsi üçün stimullaşdırıcı mexanizmlərin hazırlanmasını təmin edir;*

*2.2.5. müvafiq sahədə istehsalçılar, təchizatçılar, ötürücülər, paylayıcılar və istehlakçılar arasında mübahisələrə baxır;*

*2.2.6. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada müvafiq sahədə yoxlamalar aparır;*

*2.2.7. müvafiq sahədə qiymət (tarif) siyasətinin formalaşdırılması ilə bağlı təkliflər verir;*

*2.2.8. müvafiq sahədə sağlam rəqabət mühitinin yaradılması və enerji istehsalının səmərəliliyinin artırılması üçün tədbirlər görür".*

Məzkur fəaliyyət istiqamətlərindən irəli gələn vəzifələr **Agentliyin Nizamnaməsinin** 3.1-ci

bəndində, habelə 16.07.2018-ci il tarixli 204 nömrəli Prezident Fərmanı ilə təsdiq edilmiş **"Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"**nda açıqlanmışdır. Bu Qaydaların "**Elektroenergetika haqqında**" 11.04.2023-cü il tarixli 858-VIQ nömrəli Qanuna (https://e-qanun.az/framework/54209) uyğunlaşdırılması nəzərdə tutulur.

## 2.1. Tariflərin müəyyən edilməsi

"**Tənzimlənən qiymətlər haqqında**" Qanunun (https://e-qanun.az/framework/2335) 2.1.4-cü maddəsinə əsasən: "*2.1.4.* ***Tənzimlənən qiymət –*** *səviyyəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən qiymətdir*".

Nazirlər Kabinetinin 02.02.2005-ci il tarixli 18 nömrəli Qərarı (https://e-qanun.az/framework/7419) ilə təsdiq edilmiş **"Elektrik enerjisindən istifadə Qaydaları"**nın 8.1-ci bəndində qeyd olunduğu kimi: "*Dövlət elektroenergetika müəssisəsindən enerjitəchizatı müəssisəsinə, enerjitəchizatı müəssisəsindən abonentə, abonentdən subabonentə elektrik enerjisinin verilişi yalnız müvafiq olaraq tərəflər arasında bağlanmış elektrik enerjisinin alqı-satqı müqaviləsinə əsasən və onlar üçün təyin olunmuş elektrik enerjisinin tariflərinə uyğun aparılır*". Lakin nəzərə alınmalıdır ki, "**Elektroenergetika haqqında**" 11.04.2023-cü il tarixli 858-VIQ nömrəli Qanunla (https://e-qanun.az/framework/54209) istifadə qaydaları nəzərdə tutulmur. Ona görə də sözügedən Qanunun və Elektrik Şəbəkəsinə dair Qaydaların qüvvəyə minməsi ilə Nazirlər Kabinetinin 02.02.2005-ci il tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş Qaydaların qüvvədən salınacağı gözlənilir.

Eyni zamanda, 28.09.2005-ci il tarixli 178 nömrəli NK Qərarı ilə təsdiq edilmiş "**Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı**" (https://e-qanun.az/framework/11342) ilə "Elektrik enerjisi" (1-ci bənd) qiymətləri tənzimlənən mallara (məhsula) aid edilmişdir.

Bundan başqa, "**Tənzimlənən qiymətlər haqqında**" Qanunun (https://e-qanun.az/framework/2335) 2.1.6-cı maddəsinə əsasən tənzimlənən qiymətlər sahəsində "***Tənzimləyici orqan*** *– qiymətlərin dövlət tənzimlənməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanı*"dır. Həmin Qanunun 2.1.2-ci maddəsinə əsasən: "***Qiymətlərin dövlət tənzimlənməsi*** *- qiymətlərin əmələ gəlməsi və tətbiqi prosesinə qanunvericilik, inzibati və maliyyə-büdcə tədbirləri vasitəsilə təsir etməklə qiymətlərin müəyyən edilməsidir*".

Eyni zamanda, "**Elektroenergetika haqqında**" 11.04.2023-cü il tarixli 858-VIQ nömrəli Qanunun (https://e-qanun.az/framework/54209) 9-cu maddəsində tariflər aşağıdakı kimi

dəqiqləşdirilmişdir:

***"Maddə 9. Elektroenergetika sektorunda qiymətlər (tariflər)***

*9.1. Elektroenergetika sektorunda tənzimlənən qiymət və tariflər tənzimləyici tərəfindən müəyyən edilir.*

*9.2. Elektroenergetika sektorunda tənzimlənən qiymət və tariflər aşağıdakılardır:*

*9.2.1. elektrik enerjisinin ötürülməsi tarifləri;*

*9.2.2. elektrik enerjisinin paylanması tarifləri;*

*9.2.3. bazar operatorunun xidmətlərinin tarifləri;*

*9.2.4. ötürücü və paylayıcı şəbəkələrə qoşulma xidmətlərinin qiymətləri;*

*9.2.5. sərbəst olmayan istehlakçılara, habelə bu Qanunun 19.8-ci maddəsində nəzərdə tutulan sərbəst istehlakçılara səlahiyyətli təchizatçı tərəfindən elektrik enerjisinin təchizatı tarifləri.*

*9.3. Elektroenergetika sektorunda qiymətlər (tariflər) elektroenergetika subyektlərinin elektrik enerjisinin ötürülməsi və paylanması üzrə əsaslandırılmış xərclərini tam ödəməklə, elektroenergetikanın inkişafını təmin etməli və sosial-iqtisadi inkişafı stimullaşdırmalıdır.*

*9.4. Elektroenergetika sektorunda tənzimlənən qiymətlərin (tariflərin) müəyyən olunması qaydaları tənzimləyici tərəfindən təsdiq edilir və onun rəsmi internet səhifəsində dərc olunur.*

*9.5. Elektroenergetika sektorunda qiymətlərin (tariflərin) müəyyən olunması zamanı nəzərə alınmalı olan itkilər bu Qanunun 3.1.5-ci maddəsində göstərilən qaydaya uyğun olaraq hesablanır.*

*9.6. Elektrik enerjisinin topdansatış bazarında bazar qiymətlərinin formalaşması mexanizmləri aşağıdakılara əsaslanır:*

*9.6.1. elektrik enerjisi alıcıları və satıcılarının qiymət təklifləri əsasında tələb və təklifin balansı;*

*9.6.2. qiymətləri elektrik enerjisinin alqı-satqı müqaviləsi tərəflərinin müəyyən etməsi.*

*9.7. Topdansatış bazarında qiymət təkliflərinin verilməsi və qiymətin formalaşması topdansatış bazarı qaydaları və balanslaşdırma qaydaları ilə müəyyən edilir.*

*9.8. İkitərəfli müqavilələr bazarında elektrik enerjisinin alıcıları və satıcıları ikitərəfli müqavilə şərtlərini və qiymətləri sərbəst müəyyən edirlər".*

Bundan əlavə, 26.12.2005-ci il tarixli 341 nömrəli Prezident Fərmanının (https://e-qanun.az/framework/11239) 1-ci hissəsi ilə "**Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə**" *təsdiq edilmişdir. Həmin Əsasnamənin 1.1-ci bəndinə uyğun olaraq "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası (bundan sonra -* ***Şura****) Azərbaycan*

*Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla, dövlət tənzimlənməsi tətbiq edilən qiymətlərin (tariflərin), xidmət haqlarının, yığımların (bundan sonra –* ***qiymət****) dövlət tənzimlənməsini həyata keçirən kollegial orqandır*”. Lakin eyni zamanda “**Elektroenergetika haqqında**” 11.04.2023-cü il tarixli 858-VIQ nömrəli Qanunun (https://e-qanun.az/framework/54209) keçid müddəalarında tənzimlənən qiymətlər (tariflər) aşağıdakı kimi tənzimlənmişdir:

*“42.3. Birinci mərhələdə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:*

*42.3.5. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) [Tarif Şurası] tərəfindən elektrik enerjisinin ötürülməsi, elektrik enerjisinin topdan və pərakəndə satış qiymətlərinin (tariflərinin) (ikitərəfli müqavilələrlə satılan elektrik enerjisinin qiyməti istisna olmaqla), habelə ötürücü və paylayıcı şəbəkələrə qoşulma xidmətlərinin qiymətlərinin tənzimlənməsi;*

*42.5. İkinci mərhələdə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:*

*42.5.6. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu Qanunun 9.2-ci maddəsində nəzərdə tutulan qiymət və tariflərin tənzimlənməsi*”. Həmin maddədən göründüyü kimi, 2028-ci ildən başlayaraq elektroenergetika sektorunda tənzimlənən qiymətlər (tariflər) artıq tənzimləyici tərəfindən tənzimlənəcəkdir.

Beləliklə, elektrik enerjisinin tarifləri “**Elektroenergetika haqqında**” 11.04.2023-cü il tarixli 858-VIQ nömrəli Qanunun (https://e-qanun.az/framework/54209) keçid müddəalarında şərh edilmiş 1-ci və 2-ci mərhələ üçün Tarif (qiymət) Şurası tərəfindən müəyyən olunur.

Elektrik enerjisi qiymətlərinin illər üzrə dinamikası Tarif (qiymət) Şurasının aşağıdakı qərarlarından görünür:

1. 06.01.2007-ci il tarixli 3 nömrəli Qərar (http://www.tariffcouncil.gov.az/?/az/resolution/view/6/);
2. 14.07.2016-cı il tarixli 11 nömrəli Qərar (http://www.tariffcouncil.gov.az/?/az/resolution/view/157/);
3. 28.11.2016-cı il tarixli 17 nömrəli Qərar (http://www.tariffcouncil.gov.az/?/az/resolution/view/163/);
4. 30.06.2021-ci il tarixli 9 nömrəli Qərar (http://www.tariffcouncil.gov.az/?/az/resolution/view/215/);
5. 16.10.2021-ci il tarixli 14 nömrəli Qərar (http://www.tariffcouncil.gov.az/?/az/resolution/view/220/).

**Elektrik enerjisinin ölkədaxili tariflərinin**
**DİNAMİKASI**

| Sıra №-si | Xidmətlərin adı | Tariflər 1 kVt/saat üçün (ƏDV ilə) qəpiklə | | | | |
|---|---|---|---|---|---|---|
| | | Qərarların tarixləri və nömrələri | | | | |
| | | 06.01.2007,№3 | 14.07.2016,№11 | 28.11.2016,№17 | 30.06.2021,№9 | 16.10.2021,№14 |
| | **Qüvvəyə minib** | 08.01.2007 | 15.07.2016 | 01.12.2016 | 01.07.2021 | 01.11.2021 |
| **I.** | **Topdansatış tarifləri** | | | | | |
| 1.1. | "Azərenerji" ASC-nin istehsalı | **4,1** | **4,3** | **5,7** | **5,7** | **6,6** |
| 1.2. | Özəl kiçik su elektrik stansiyalarının istehsalı | **2,5** | **2,5** | **5** | **5** | **5** |
| 1.3. | Külək elektrik stansiyalarının istehsalı | **4,5** | **4,5** | **5,5** | **5,5** | **5,5** |
| | Digər alternativ və bərpa olunan mənbələr üzrə | | | **5,7** | **5,7** | **5,7** |
| | Alternativ mənbələr üzrə | | | | | **6,6** |
| **II.** | **Pərakəndə satış tarifləri** | | | | | |
| | **Əhali** | | | | | |
| | aylıq istehlak həcminin 300 kVts-a qədər (300 daxil) | | | **7** | **7** | |
| | aylıq istehlak həcminin 300 kVts-dan çox olan hissəsi üçün | | | **11** | **11** | |
| | aylıq istehlak həcminin 200 kVts-a qədər (200 daxil) | | | | | **8** |
| | aylıq istehlak həcminin 200 kVts-dan 300 kVts-a qədər (300 kVts daxil) hissəsi üçün | | | | | **9** |
| | aylıq istehlak həcminin 300 kVts-dan çox olan hissəsi üçün | | | | | **13** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 2.1. | Bütün istehlakçılar üçün | **6** | **7** | **9** | **9** | **10** |
| 2.2. | Ticarət və xidmət | | | | | **11** |
| **III.** | **Tranzit ötürülmə tarifləri** | | | | | |
| 3.1. | Elektrik enerjisinin tranzit ötürülməsi | **0,2** | **0,2** | **0,2** | **0,2** | **0,2** |
| IV. | Enerji təchizatı birbaşa 35 və 110 kv xətlərlə həyata keçirilən, gün ərzində yük tələbatı stabil olan, istehsal məqsədləri üçün orta aylıq enerji istehlakı 5 milyon kVt/saatdan az olmayan kimya və alüminium sənayesi müəssisələri, dağ mədən filizi əsasında polad əritmə istehsalı **(08.01.2007-ci ildən tətbiq edilsin) məlumatların emalı və ötürülməsi (20.12.2017-ci ildən qüvvəyə minib)** | | | | | |
| 4.1. | Gündüz vaxtı (səhər saat 08.00-22.00-a qədər) | **4,2** | | **5,8** | **7,3** | **6,4*** |
| 4.2. | Gecə vaxtı (saat 22.00-dan saat 08.00-a qədər) | **2** | | **2,8** | **3,5** | **3,1*** |

* Qeyd: IV bənd üzrə tariflər 01.11.2021-ci il tarixdən yalnız alüminium sənayesi müəssisələrinə şamil olunur.

**Elektroenergetika haqqında**" 11.04.2023-cü il tarixli 858-VIQ nömrəli Qanunun (https://e-qanun.az/framework/54209) keçid müddəalarına əsasən 2028-ci ilə qədər elektroenergetika sektorunda tənzimlənən qiymətlərin (tariflərin) müəyyən edilən aşağıdakı proseduru qüvvədə qalacaq. Prosedur olaraq hazırda **Agentliyin Nizamnaməsinin** (https://e-qanun.az/framework/37363) 2.2.7-ci yarımbəndinə əsasən, o "*müvafiq sahədə qiymət (tarif) siyasətinin formalaşdırılması ilə bağlı təkliflər verir*", 3.1.2-ci yarımbəndinə əsasən isə "*elektrik və istilik enerjisinin, habelə qazın qiymətləri (tarifləri) ilə bağlı daxil olmuş təklifləri təhlil edir və həmin qiymətlərin (tariflərin) dövlət tənzimlənməsinə dair təkliflərini aidiyyəti üzrə təqdim edir*".

Paylayıcıya münasibətdə, 14.05.2015-ci il tarixli 190 nömrəli NK Qərarı (https://e-qanun.az/framework/30261) ilə təsdiq edilmiş "**Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi**"nin (bundan sonra – "**Azərişıq" Nizamnaməsi**) 3.2-ci bəndinə əsasən Cəmiyyət aşağıdakı istiqamətdə fəaliyyət göstərir: "*3.2.1. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağladığı müqavilələr əsasında dövlət elektroenergetika müəssisəsindən və müstəqil enerji istehsalçılarından elektrik enerjisinin satın alınması, habelə istehlakçıların kəmiyyət və keyfiyyətcə (gərginlik, tezlik və təchizatın etibarlılığı) müntəzəm qaydada elektrik enerjisi ilə təchiz edilməsi və mövcud tarif qiymətinə uyğun olaraq haqqın yığımı;... 3.2.10. Cəmiyyətə aid olan məsələlər üzrə islahatların aparılmasına dair təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi*".

Dövlət Əmlak Komitəsinin 28.12.1996-cı il tarixli 200 nömrəli Əmi ilə təsdiq edilmiş **"Azərenerji" Açıq Tipli Səhmdar Cəmiyyətinin Nizamnaməsi"**nin 3.2-ci bəndində tənzimlənən qiymətlər və ya tariflərlə bağlı hər hansı müddəa nəzərdə tutulmamışdır. Lakin hər bir halda, bu təşkilatın Agentlik qarşısında təklif irəli sürmə səlahiyyəti ehtiva olunur. Eyni ehtiva elektrik enerjisini istehsal edib, istehlakçını özü təchiz edən elektrik enerjisinin istehsalı müəssisəsinə də aiddir.

Göründüyü kimi, enerji təchizatı müəssisəsi olan "Azərişıq" ASC tənzimlənən qiymətlər və tariflərlə bağlı təklif verə bilər. Bu təkliflər Agentliyə daxil olduqda, onlar təhlil edilib, dövlət tənzimlənməsinə dair təkliflər qiymət (tarif) üzrə tənzimləyici orqan olan Azərbaycan Respublikasının Prezidenti, NK və ya Tarif (qiymət) Şurasına təqdim edilir.

Tənzimlənən qiymətlərin (tariflərin) hesablanması 30.12.2005-ci il tarixli 247 nömrəli NK Qərarının (https://e-qanun.az/framework/14583) 1-ci hissəsi ilə təsdiq olunmuş "**Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları**" ilə tənzimlənir. Bununla belə "**Tənzimlənən qiymətlər haqqında**" Qanunun (https://e-qanun.az/framework/2335) 5-ci maddəsinə əsasən dövlətin əsas vəzifələrindən biri

də *“5.0.3. tənzimlənən qiymətlərin təsdiqi, tətbiqi, dəyişdirilməsi, tənzimlənməsinin dayandırılması və qiymətin əmələ gəlməsi qaydalarını müəyyən etmək”*dir. Lakin qeyd olunan adda qaydalar təsdiq olunmayıb.

Bundan başqa, “**Tənzimlənən qiymətlər haqqında**” Qanunun (https://e-qanun.az/framework/2335) 4-cü maddəsinə əsasən:

*“4.0. Qiymətlərin tənzimlənməsinin əsas prinsipləri aşağıdakılardır:...*

*4.0.7. qiymətin əmələ gəlməsində iqtisadi cəhətdən əsaslandırılmış xərclərin ödənilməsi”.*

Qabaqcıl beynəlxalq təcrübəyə görə bu cür xərclər iqtisadi cəhətdən tənzimləyici orqan qarşısında əsaslandırılmalıdır və yalnız həmin orqan tərəfindən əsaslılığı təsdiq olunmuş xərclər tənzimlənən qiymətlərin (tariflərin) müəyyən olunması zamanı nəzərə alınır.

Həmin Qanunun (https://e-qanun.az/framework/2335) 5-ci maddəsinə əsasən: *“5.0. Qiymətlərin tənzimlənməsi sahəsində dövlətin əsas vəzifələri aşağıdakılardır:... 5.0.3. tənzimlənən qiymətlərin təsdiqi, tətbiqi, dəyişdirilməsi, tənzimlənməsinin dayandınlması və qiymətin əmələ gəlməsi **qaydalarını müəyyən etmək**;... 5.0.5. yüksək mənfəət əldə etmək məqsədilə qiymətlərin səviyyəsinin əsassız olaraq artırılmasının qarşısını almaq və dövlətin iqtisadi maraqlarını təmin etmək... 5.0.7. qiymətlərin tənzimlənməsi ilə əlaqədar tənzimləyici orqan ilə qiymətin əmələ gəlməsi subyekti arasında meydana çıxan məsələlərə baxmaq və qərar qəbul etmək”*. Bu kontekstdə “yüksək mənfəət” ifadəsi qanunla dəqiqləşdirilmir. Amma qeyd olunan maddə elektrik enerjisinin təchizatı sahəsində təfərrüatlı metodoloji sənədin qəbul edilməsi imkanını nəzərdə tutur.

Bundan başqa, “**Tənzimlənən qiymətlər haqqında**” Qanunun (https://e-qanun.az/framework/2335) 7-ci maddəsinə əsasən: *“7.1. Qiymətlərin tənzimlənməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının vəzifələri aşağıdakılardır:... 7.1.3. qiymətlərin əmələ gəlməsi... sahəsində dövlət siyasətini müəyyənləşdirən normativ hüquqi aktlara dair təkliflər vermək;... 7.1.5. qiymətin əmələ gəlməsi və tətbiqi ilə bağlı meydana çıxan məsələlərə dair rəy vermək;... 7.1.6. antiinhisar qanunvericiliyinə uyğun olaraq... qiymətin əmələ gəlməsi subyektinin istehsal xərclərinin kənar amillər hesabına artırılmasının qarşısının alınmasını təmin etmək”*. Başqa sözlə, qiymətlərin formalaşması metodologiyasının əsaslarını normativ hüquqi aktlarla müəyyən etmək olar.

Bundan əlavə, həmin maddəyə əsasən: *“7.2. Qiymətlərin tənzimlənməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının hüquqları aşağıdakılardır:... 7.2.4. məhsulun (malın, işin,*

*xidmətin) istehsalına və satışına aid edilən xərclərin əsassız artırılmasının qarşısını almaq və onlara məhdudiyyətlər tətbiq etmək*". Bu kontekstdə "xərclərin əsassız artırılması" dedikdə, o xərclər əsassız sayılır ki, onların əsaslı olması tənzimləyici orqan tərəfindən təsdiq edilməyib.

Yuxarıda qeyd olunanlar bir daha onunla təsdiq olunur ki, "**Tənzimlənən qiymətlər haqqında**" Qanunun (https://e-qanun.az/framework/2335) 8-ci maddəsinə əsasən: "*8.1. Məhsullarının (mallarının, işlərinin, xidmətlərinin) qiymətləri tənzimlənən təsərrüfat subyektlərinin vəzifələri aşağıdakılardır:... 8.1.2. tənzimlənən qiymətlərin əmələ gəlməsi və tətbiqi qaydalarının, eləcə də qiymətin tərkib hissəsini təşkil edən xərclərin iqtisadi cəhətdən əsaslandırılmasını təmin etmək*". Bu maddə elektroenergetika sahəsinə tətbiq edildikdə, ötürücü və paylayıcılar öz xərclərinin, o cümlədən qəbul ediləcək qaydanın (metodologiyanın) tənzimləyici orqan qarşısında əsaslandırılmasını nəzərdə tutur.

**2.2. Xidmət keyfiyyətinin hədəfləri**

**Agentliyin Nizamnaməsinə** (https://e-qanun.az/framework/37363) əsasən Agentlik "*3.1.6. müvafiq sahədə istehlakçılara keyfiyyətli və səmərəli xidmət göstərilməsinin təmin edilməsi üçün tədbirlər görür*". Bununla yanaşı, **"Azərişıq" Nizamnaməsinin** (https://e-qanun.az/framework/30261) 3.2-ci bəndinə uyğun olaraq Cəmiyyət aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir: "*3.2.1. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağladığı müqavilələr əsasında dövlət elektroenergetika müəssisəsindən və müstəqil enerji istehsalçılarından elektrik enerjisinin satın alınması, habelə istehlakçıların kəmiyyət və keyfiyyətcə (gərginlik, tezlik və təchizatın etibarlılığı) müntəzəm qaydada elektrik enerjisi ilə təchiz edilməsi və mövcud tarif qiymətinə uyğun olaraq haqqın yığımı;... 3.2.7. Cəmiyyətin elektrik qurğularının texniki təhlükəsizliyinin, həmçinin elektrik şəbəkəsinin fəaliyyətini təmin edən proqram və texniki vasitələrin təhlükəsizliyinin təmin olunması üçün tədbirlərin görülməsi*". Nizamnamənin "**Elektroenergetika haqqında**" 11.04.2023-cü il tarixli 858-VIQ nömrəli (https://e-qanun.az/framework/54209) Qanuna uyğunlaşdırılması nəzərdə tutulub.

Elektrik enerjisinin keyfiyyətinə dair tələblər NK tərəfindən təsdiq olunmuş aşağıdakı qaydalarla müəyyən olunub:

"**Elektrik qurğularının quraşdırılması Qaydası**" (https://e-qanun.az/framework/44391);

"**Elektrik və istilik qurğularının texniki istismar Qaydası**" (https://e-qanun.az/framework/44100);

"**Elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydası**" (https://e-qanun.az/framework/44396);

“**Elektrik enerjisindən istifadə Qaydaları**” (https://e-qanun.az/framework/7419);

“**İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları**” (https://e-qanun.az/framework/26528).

Bundan əlavə, keyfiyyətlə bağlı normalar “**Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında**” 4 aprel 2017-ci il tarixli 1313 nömrəli Prezident Fərmanı ilə təsdiq edilmiş “**Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası**” (https://e-qanun.az/framework/35166) ilə də müəyyən olunur.

Xidmət keyfiyyətinin hədəfləri “**Elektrik və istilik qurğularının texniki istismar Qaydası**” (https://e-qanun.az/framework/44100) ilə nəzərdə tutulmuş proqnozlara uyğun olaraq qəbul edilmiş planlarda müəyyən olunur.

## 3. Elektrik enerjisi təchizatının əsas xüsusiyyətləri (şəffaflıq, müstəqillik)

“**Energetika haqqında**” Qanunun (https://e-qanun.az/framework/5095) 31-ci maddəsinin 2-ci hissəsinə əsasən “*Energetika müqaviləsinin təqdim edilməsi başlayanadək mülkiyyət hüququ və ona aid dəyişikliklər dərc edilməli və ictimaiyyətlə məsləhətləşmək üçün açıq olmalıdır*”. Həmin Qanunun digər müddəalarından görünür ki, burada enerji qurğularına mülkiyyət hüququndan bəhs edilir.

“**Elektroenergetika haqqında**” 11.04.2023-cü il tarixli 858-VIQ nömrəli Qanunda (https://e-qanun.az/framework/54209) təchizat sahəsində şəffaflığa dair aşağıdakı müddəalar nəzərdə tutulmuşdur:

“*1.1.21. **elektrik şəbəkələrinə çıxış** – ötürücü və ya paylayıcı şəbəkə istifadəçilərinin (elektrik enerjisi istehsalçıları, təchizatçıları, istehlakçıları, habelə ötürücü sistem operatoru və paylayıcı sistem operatoru) həmin şəbəkələrdən əvvəlcədən müəyyən edilmiş, ayrı-seçkiliyə yol verilməyən (bu Qanunun 11.6-cı maddəsinin tələbləri nəzərə alınmaqla) və şəffaf şərtlərlə (müqavilə şərtlərinə və tənzimlənən qiymətlərə (tariflərə) uyğun) istifadə etmək hüququ, həmçinin ötürücü və paylayıcı sistem operatorlarının bu hüququn təmin edilməsi üzrə vəzifələri;*

*4.1. Elektroenergetika sektorunda dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:*

*4.1.2. elektroenergetika sektorunda idarəetmə və tənzimləmənin effektivliyi və şəffaflığı;*

*6.2. Tənzimləyici bu Qanunun 3.1.6-cı maddəsində göstərilən qaydaya uyğun olaraq, aşağıdakılar daxil olmaqla, elektrik enerjisi bazarının monitorinqini həyata keçirir:*

*6.2.3. icazə tələb olunan fəaliyyət növlərinin həyata keçirilməsində şəffaflığın;*

*14.2. Ötürücü sistem operatorunun hüquqları aşağıdakılardır:*

*14.2.1. elektrik enerjisinin topdansatış bazarında şəffaf şəkildə, ayrı-seçkiliyə yol verilmədən və topdansatış bazarı qaydalarına uyğun olaraq ötürücü şəbəkədə elektrik enerjisi itkilərinin ödənilməsi məqsədilə elektrik enerjisini almaq, həmçinin balanslaşdırma məqsədilə elektrik enerjisini almaq və satmaq;*

*20.1. Elektrik enerjisi bazarı subyektlərinin tikinti obyektlərinin elektrik şəbəkələrinə qoşulması şəffaf və ayrı-seçkiliyə yol verilmədən həyata keçirilir*".

Bununla yanaşı, həmin qanunda açıqlanmalı olan bəzi məlumatlar qeyd olunub:

"*9.4. Elektroenergetika sektorunda tənzimlənən qiymətlərin (tariflərin) müəyyən olunması qaydaları tənzimləyici tərəfindən təsdiq edilir və onun rəsmi internet səhifəsində dərc olunur.*

*18.5. Elektrik enerjisi təchizatçısının vəzifələri aşağıdakılardır:*

*18.5.2. istehlakçı qrupları üzrə elektrik enerjisi təchizatının şərtlərini rəsmi internet saytında dərc etmək;*

*23.2. Bazar operatorunun vəzifələri aşağıdakılardır:*

*23.2.11. topdansatış bazarının fəaliyyəti barədə məlumatları topdansatış bazarı qaydaları ilə müəyyən olunan qaydada dərc etmək*".

Bundan başqa, elektrik enerjisi sektorunda "**İnformasiya əldə etmək haqqında**" Qanunun (https://e-qanun.az/framework/11142) tələblərinə riayət edilməlidir.

**Agentliyin Nizamnaməsinin** (https://e-qanun.az/framework/37363) 3.1.48-ci yarımbəndinə uyğun olaraq o: "*öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin edir*".

Eyni zamanda, 11.04.2014-cü il tarixli 149 nömrəli Prezident Fərmanı (https://e-qanun.az/framework/27517) ilə təsdiq edilmiş "**Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə**"nin 3.0.41-ci yarımbəndinə uyğun olaraq, Nazirlik "*öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yeniləşdirilməsini təmin edir*".

**"Azərişıq" Nizamnaməsinin** (https://e-qanun.az/framework/30261) 8.4-cü bəndinə uyğun olaraq, "*Cəmiyyət xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) bağlanması barədə məlumatı mətbu orqanda dərc etdirməyə və Cəmiyyətin*

*internet səhifəsində yerləşdirməyə borcludur*”.

Elektrik enerjisi təchizatı sektoru energetika sahəsinin digər sektorları ilə, habelə iqtisadiyyatın digər sahələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Yekunda onun da qeyd olunması vacibdir ki, “**Elektroenergetika haqqında**” 11.04.2023-cü il tarixli 858-VIQ nömrəli Qanunun (https://e-qanun.az/framework/54209) aşağıda əks olunmuş müddəaları ilə tənzimləyiciyə verilmiş səlahiyyətlər çərçivəsində qəbul olunacaq təlimat və qaydalarda şəffaflıq və müstəqilliklə bağlı əlavə müddəalar nəzərdə tutulacaq:

“*3.1. Elektroenergetika sektorunda bazar münasibətləri tənzimləyicinin təsdiq etdiyi aşağıdakı qaydalarla tənzimlənir:*

*3.1.1. topdansatış bazarı qaydaları;*

*3.1.2. balanslaşdırma qaydaları;*

*3.1.3. kommersiya uçotu qaydaları;*

*3.1.4. pərakəndə satış bazarı qaydaları;*

*3.1.5. ötürücü və paylayıcı sistem operatorlarının elektrik enerjisi itkilərinin hesabat dövrü üçün normativ göstəricilərinin müəyyənləşdirilməsi qaydası;*

*3.1.6. elektrik enerjisi bazarının monitorinqi qaydası.*

*...*

*14.6. Mərkəzi operativ-dispetçer xidmətinin fəaliyyəti ötürücü sistem operatorunun təklifləri nəzərə alınmaqla tənzimləyici tərəfindən təsdiq edilən təlimatla tənzimlənir.*”.